# Xoşbəxtliyini fəaliyyətində tapan alim - müəllim

Hər kəsə bir ömür verilib, - deyirlər. Hərə də bir cür yaşayır bu ömrü. Elə buna görə də "mənalı, şərəfli ömür" ifadələri yaranıb. Faydalı, xeyirxah, insanların inkişafına təkan verən, daim fəaliyyətdə keçən ömrə "dəyərli ömür", "örnək ömür" deyiblər. Cəsarətli, qeyrətli, sözübütöv, sədaqətli insanlar şərərəfli ömür sahibinə çevriliblər. İradə Nüsrət qızı Şirinzadə də belə mənalı ömür yaşayanlardandır. Lakin onun şərəfli ömür yolunda bir nisgili də var-vətən həsrəti...

İradə Şirinzadə 1963-cü ildə Ağdam rayonunun Abdal-Gülablı kəndində anadan olmuşdur. 1970-ci ildə kənd məktəbində 1-ci sinfə daxil olsa da, təhsilini Bakıda davam etdirmişdir.1978-ci ildə paytaxta gələrək burada 5 nömrəli Kimya-biologiya təmayüllü məktəbdə oxumuş və 1980-ci ildə həmin məktəbi bitirərək Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun inşaat-texnologiya fakültəsinə daxil olmuşdur. Paytaxtda ali təhsil alan gəncin sonrakı həyat yolu da elə oxuduğu ali məktəblə bağlı olmuşdur.

1985-ci ildə institutu bitirdikdən sonra gənc mütəxəssis kimi həmin ali məktəbin inşaat materialları kafedrasında baş laborant vəzifəsində çalışmağa başlamışdır. 1986-1988-ci ilərdə inşaat fakültəsinin azad komsomol komitəsi katibi vəzifəsində işləmiş, 1988-ci ildə Təhsil Nazirliyinin göndərişi ilə D.İ.Mendeleyev adına Moskva Kimya-Texnologiya İnstitutuna məqsədli aspiranturaya daxil olmuş və orada 1992-ci ildə "Silikatların və çətinəriyən qeyri-metalların kimyəvi texnologiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1995-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetində əvvəl assistent, baş müəllim və 2001-ci ildən isə dosent vəzifələrində çalışmaga başlamışdır.

Xaraktercə sadə, təvazökar bir insan olan tanınmış alim İradə Şirinzadə özü haqqında danışmağı xoşlamasa da, söhbət zamanı bəzi məlumatları öyrənə bildim. 2005-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat materialları kafedrasının müdiridir. 2006-cı ildə AzMİU-nun nəzdində "İnşaat Materialları Elmi Tədqiqat və Sınaq Laboratoriyası" yaratmış və onu Azərbaycan Milli Akkreditasiya sistemində texniki səlahiyyətliliyə və müstəqilliyə akkreditasiya etdirmişdir. 2012-ci ildə isə laboratoriya İSO/IEC 17025:2009 "Sınaq və kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə ümumi tələblər" standartına uyğun akkreditasiya olunmuşdur. Laboratoriya təsərrüfat hesablı olduğundan ondan gələn gəlir universitetin hesabına keçir.

2010-cu ildə "İnşaat materialları və məmulatları" ixtisasından "Aşağı temperaturda yandırılan gil-dolomit kompozisiya materiallarının fiziki-kimyəvi əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək texnika elmləri doktoru alimlik dərəcəsi almış və 2012-ci ildən professor vəzifəsinə seçilmişdir.

80-dən çox elmi əsərin, "İnşaat materiallarının fiziki-kimyəvi əsasları" dərsliyinin, "İnşaat materiallarından laboratoriya praktikumu", "İnşaat materialları istehsalının inkişaf tarixi" adlı dərs vəsaitlərinin və "Nizkoobjiqovıe kompozicionnıe materialı" adlı monoqrafiyanın müəllifidir. Həm də inşaat materialları üzrə 4 patent alıb.



Ali məktəb müəllimini ən azı iki cəhətdən xarakterizə etmək olar: Bir alim kimi, bir də müəllim olaraq. Alim kimi məhsuldar fəaliyyət göstərən İ.Şirinzadə müəllim kimi də peşəkar və həmkarlarına nümunədir. Universitetin müxtəlif fakültələrində "İnşaat materialları və məmulatları", "Yol inşaat materialları və məmulatları", "Materialşunaslıq" və "İnşaat materiallarının fiziki-kimyəvi əsasları" fənlərindən mühazirələr oxuyur. Universitet Elmi Şurasının və Universitetdə Dissertasiya Şurasının üzvüdür.

Professorun rəhbərliyi ilə 1 doktorant müdafiə etmiş, 1-i isə yaxın günlərdə müdafiə edəcəkdir. 4 doktorant da onun rəhbərliyi altında inşaat materialları və məmulatları ixtisası üzrə elmi-tədqiqat işi həyata keçirir.

2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun elan etdiyi Sənaye Qrandı müsabiqəsində İradə Şirinzadənin "Aşağı temperaturda yandırılan gil-dolomit kompozisiya materialları texnologiyasının işlənməsi və xassələrinin tədqiqi" mövzusunda layihəsi də qalib olmuşdur. Hazırda bu layihə üzərində tədqiqat işi davam edir.

Professor İ.Şirinzadə eyni zamanda Fransanın Monpolye Universitetinin koordinatorluğu ilə Azərbaycanın bir çox aparıcı universitetlərinin əməkdaşları ilə birlikdə Beynəlxalq Qrand layihəsinin işçi qrupuna daxildir. Layihə 2018-ci ilin sonuna qədər davam edəcəkdir.

Professor Rusiyada, Türkiyədə, Özbəkistanda, Ukraynada keçirilən beynəlxalq və respublika konfranslarında inşaat materiallarının tədqiqi ilə bağlı maraqlı mövzularda çıxışlar edir. Son illərdə onun təşkilatçılığı ilə 2 beynəlxalq konfrans keçirilmişdir.

İradə Şirinzadə həm də gözəl ailə sahibidir. 2 övladı var. Böyük oğlu Kamran Türkiyənin Ankara şəhərində Bilkent Universitetinin bakalavr pilləsini bitirmiş, magistratura pilləsində təhsilini davam etdirmək fikrindədir. Kiçik oğlu İmran isə Azərbaycan Dillər Universitetində Koreya dili üzrə tərcüməçilik ixtisasında II kursda təhsil alır.

Bu təqdimatımızdan yəqin oxucularımız da hiss edəcəklər ki, İradə xanım məhz yazının əvvəlində bəhs etdiyimiz xoşbəxtlik kateqoriyasına düşən, onu əhatə edənlər tərəfindən daim sevilən insanlardandır.

Biz İradə xanıma xoşbəxtliyinin daimi olmasını, daha böyük uğurlara imza atmasını arzulayırıq.

**Şakir CƏFƏROV,**
*"Azərbaycan müəllimi" qəzetinin şöbə redaktoru*